# GÜRCÜSTANLI SOYDAŞLARIMIZ ETNOQRAFİK AYNADA

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Əsəd Tanrıverdi oğlu Əliyevin, Gürcüstan Azərbaycanlılarının etnoqrafiyası (XIX-XX əsrin əvvəlləri: təsərrüfat məişəti və maddi mədəniyyəti)" adlı (Bakı, "Avropa" nəşriyyatı, 2019) monoqrafiyası işıq üzü görüb. Elmi redaktoru akademik Teymur Bünyadov, rəyçiləri tarix elmləri doktoru, professor Şirin Bünyadova və tarix üzrə fəlsəfə doktoru, dosent Kərəm Məmmədovdur.

Monoqrafiyanın məzmunu ilə bağlı yazdığı ön sözdə akademik T.Bünyadov göstərir ki, "Azərbaycan etnoqrafiya elminin qarşısında duran ən mühüm məsələlərdən biri respublikamızdan kənarda yaşayan soydaşlarımızın etnoqrafiyasını tədqiq etməkdən ibarətdir". Məhz bu baxımdan Əsəd Əliyevin bu əsərində Gürcüstan ərazisində aborigen əhali kimi kompakt şəkildə yaşayan soydaşlarımızın etnoqrafik maddi mədəniyyət nümunələrini öyrənib tədqiq etməsi xüsusi önəm daşıyır.

Akademik Teymur Bünyadov ön sözdə əsərin geyimlər və bəzəklər bölməsindən danışarkən onu da qeyd edir ki, "müəllif müqayisəli təhlillər nəticəsində geyimlərin lokal-məhəlli xüsusiyyətləri ilə birgə Azərbaycan, digər türk xalqları, bəzi elementlərində isə Qafqaz səciyyəsini göstərir və haqlı olaraq bu amili təbii hal sayır. Çünki Gürcüstan azərbaycanlıları Azərbaycan türk xalqının ayrılmaz tərkib hissəsidir, onlar eyni mənşəyə mənsubdurlar, rusların mənfur siyasətinin nəticəsi olaraq sonradan qondarılan sərhədə qədər Qazax bölgəsinin əhalisi ilə bir ərazidə yaşayıblar". Mən deyərdim ki, əslində bu iki ayrı-ayrı yerdən gətirdiyim sitatlarda akademik T.Bünyadov iki mühüm tezisi ortaya qoyub: "Gürcüstan Azərbaycanlıları" deyildikdə, bu günün reallığı ilə götürdükdə, faktiki olaraq ölkəmizdən qıraqda yaşayan soydaşlarımızdan söhbət gedir. "Gürcüstan azərbaycanlıları" ifadəsi-sonradan "rusların mənfur siyasətinin nəticəsində" meydana gəlmişdir. Halbuki əslində tarixən onlar vətənimizin Qazax bölgəsinin əhalisi ilə eyniyyət təşkil etmişdir.




Deməli, bu miqdardan- bu ölçüdən, bu çərçivədən yanaşdıqda, Əsəd Əliyev bu günün gözündən baxılanda, coğrafi-ictimai-siyasi amillərə nəzərən çox mürəkkəb bir bölgənin əhalisinin etnoqrafiyasını araşdırmaqla çox məsul bir yükün altına girmişdir. Çünki o bölgələrdən danışılır ki, bir vaxtlar ərazisi də bizim idi, əhalisi də. Bu gün isə ərazisi bizdən qopardılıb, əhalisi isə doğma yurdda yaşadığı halda qürbət ellərin qərib sakinləri kimi bizə təqdim olunur. Amma bu qürbətlik, qəriblik anlayışları siyasi müstəvidə özünü göstərə bilər, əslində isə "Gürcüstan azərbaycanlıları" canımızın-qanımızın, ruhumuzun ayrılmaz parçasıdır, nə qədər ona siyasi don geyindirilsə də, nəqədər imperiyanın qansız qanunları aralığa yad ölkə adı altında sərhədlər çəksə də ... Çünki o ellərdə bizim dədə-babalarımız yaşayıblar, çünki o yerin sakinləri olan soydaşlarımız ruhlarında dədə-babalarımızın ruhlarını yaşadırlar. Elə Əsəd Əliyevin də fədakarlığı bu ruhun maddi-mənəvi təcəssümünü-etnoqrafiyamızı öyrənmək və nümayiş etdirməkdir. Heç təsadüfi deyil ki, kitabın girişində bu məsələyə belə toxunur: "Xalqın tarixi təkcə yazılı mənbələrdə deyil, eləcə də onun adət-ənənəsində, əhatə olunduğu aləm haqqında düşüncə və təsəvvüründə, inam-etiqadında, əmək alətlərində, yeməyində, geyimində, yaşayış evlərində, babelə qəbir abidələrində və qədim məskənlərində, əfsanə və epik dastanlarında, rəvayətlərində, etnos tərəfindən yaradılıb, onu başqalarından fərqləndirən mədəniyyətin bütün sferalarında qorunur. Bu fikir etnoqraf alimlərimizin daha fəal olmasını, xalqın məişət və mədəniyyətini dərindən, əhatəli, kompleks şəkildə öyrənməsini şərtləndirir". Bəli, məhz bu amal uğrunda Əsəd müəllim Gürcüstan ərazisində yaşayan soydaşlarımızın tarixi mədəniyyətini öyrənməyi qarşısına məqsəd qoymuşdur. Beləcə, XIX-XX əsrin əvvəllərinə aid təsərrüfat həyatı və maddi mədəniyyətlə bağlı tarixi-etnoqrafik yönlü dəyərli bir tədqiqata imza atmışdır. Bunun üçün o, Azərbaycan etnoqraflarının, arxeoloqlarının, sənətşünaslarının əsərlərindən, habelə XIX-XX əsr rus və gürcü müəlliflərinin yazılı məlumatlarından , eyni zamanda yaşlı nəslin nümayəndələrindən topladığı etnoqrafik materiallardan bəhrələnmişdir. Nəticədə isə "İqtisadi mədəniyyətin quruluşunda təsərrüfat həyatı, məşğuliyyəti və məişəti" və "Gürcüstan azərbaycanlılarının maddi mədəniyyətinin spesifik cəhətləri" adları altında iki fəsildə yazdıqlarını ümumiləşdirməyə nail olmuşdur.

Əsəd Tanrıverdi oğlu Əliyevin kişi üst geyim tiplərindən olan çuxa ilə bağlı verdiyi bilgiyə nəzər salaq: "Gövdə. ətək və qol hissəsində ibarət biçilən çuxanın gövdəsi astarlı, qolları bütöv və uzunluğu dizdən aşağı, yaxası isə boyaboy açıq tikilirdi. Çuxa əsasən arxalığın üstündən geyilərdi.

Azərbaycanın bəzi etnoqrafik bölgələrindən fəqli olaraq, tədqiq etdiyimiz əhaliçuxanın belini qayış kəmərlə bağlayır, qollarının ağzını isə ilgək-düymə ilə düymələyərdi.

Tədqiqatçılar biçim üsuluna görə çuxanı büzməli, çinli və büzməli-çinli olmaqla üç növə ayırırlar. Araşdırdığımız əhali arasında əsasən çinli və büzməli-çinli çuxadan istifadə olunmuşdur. Büzməli-çinli çuxanın arxası büzməli, yan hissələri isə çinli tikilərək yaxa kəsiyinin sağ və sol döş hissəsində "vəznə" qoyulurdu. Yaşlı kişilərin dediyinə görə, öz zamanında vuran-tutan oğullar vardı ki, vəznədən təkcə bəzək elementi kimi yox, həm də məsrə-giliz düzmək üçün istifadə edərdi. Hətta Tiflisin Meydan məhəlləsinin vurub-tutan (qoçu) azərbaycanlı oğlanlarını gürcülər "kxaraçoxeli" - qaraçuxalı adlandırırdılar.

Çuxa mahud və yun şal kimi materialdan tikilərdi. Qocaların çuxası tünd, cavanlarınkı isə açıq rəngli olurdu. Ümumiyyətlə, ədəbiyyat və etnoqrafik materiallarla tanışlıq göstərir ki. kiçicik məhəlli fərqlər nəzərə alınmazsa, istər biçim üsulunda, istərsə də geyim tərzində və rəng çalarında çuxa ümumtürk və Ümumqafqaz səciyyəsi daşımışdır".

Bu parçada XIX-XX əsrin əvvəlləri üçün səciyyəvi olan kişilərin üstdən geydikləri çuxa haqqında lazımi və ətraflı etnoqrafik məlumatlar verən Əsəd Əliyev elmi obyektivlik göstərib həm milli, həm də ümumbəşəri mövqe ilə çıxış etmişdir. Belə ki, elmilik prinsipi ilə hərəkət edən alim çuxanın həm türk, həm də Qafqaz xalqları üçün müştərək geyim tipi olduğunu göstərmişdir.

Eyni zamanda milli düşüncəmizdəki geyim mədəniyyətimizə işarə ilə "vəznəli çuxa" elementindən danışmaqla etnik yaddaşı tərpətmişdir. Bununla da soydaşlarımızın Gürcüstanın paytaxtı olan Tiflisdə də öz geyim dəst-xətləri ilə seçildiyini göstərmiş və bir tarixçi-etnoqraf kimi bu yolla da etnoqrafik səciyyəli xəlqi keyfiyyətlər fonunda tarixə güzgü tutmuşdur. Beləliklə də Əsəd Əliyev monoqrafiya boyu XIX əsr və XX əsrin əvvəllərində Gürcüstanda yaşayan azərbaycanlıların təsərrüfat məişəti və maddi mədəniyyətləri əsasında etnoqrafik göstəricilərinin aydın əyani mənzərəsini açıb ortaya qoymuşdur.

*Şakir* Əlifoğlu
***filologiya üzrə fəlsəfə doktoru, dosent***